# Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Müasir dövrün iqtisadi reallıqları və onların iqtisadi siyasət prioritetlərinə təsiri

Tərlan Qəhrəmanova

UNEC SABAH

Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı-2018

**MÜNDƏRICAT**

GİRİŞ ........................................................................................................3

I FƏSİL. İQTİSADİ SİYASƏTİN ÜMUMİ XARAKTERİSTİKASI VƏ NƏZƏRİ-MEDOLOJİ ASPEKTLƏRİ ............................................................5

1.1. İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini doğuran səbəblərin tarixi mərhələlər üzrə dəyişkən xarakteri ..............................................................5

1.2. Müasir iqtisadi siyasət alətləri və onların spesifik xüsusiyyətləri .......7

1.3. Fərqli iqtisadi siyasət konsepsiyaları əsasında formalaşmış inkişaf modelləri ........................................................................................ 18

II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA YERİDİLƏN İQTİSADİ SİYASƏT TƏDBİRLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ . 21

2.1. Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri və iqtisadi idarəetmə sahəsində dövlət maraqları ........................................................... 21

2.2. Beynəlxalq təsərrüfat sisteminə inteqrasiyası kontestində müasir çağırışlar və iqtisadi siyasətdə yeni prioritetlər ...................................... 39

2.3. Dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına yönəlik iqtisadi siyasət tədbirlərinin prioritet istiqamətləri ........................................................... 49

NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 51

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR ................................................ 55

## Giriş

Müasir dövrdə heç bir iqtisadi sistemi dövlətin müdaxiləsi olmadan təsəvvür etmək mümkün deyildir.Hər bir dövlətin məqsədi cəmiyyətin tələbatlarını maksimum ödəmək və rifahını artırmaqdır. Bu məqsədə çatmaq üçün də dövlət iqtisadiyyata təsir göstərərək nail olmalıdır.

Dövlət tənzimlənməsinin bazar iqtisadiyyatında vacibliyini göstərən C.M.Keyns deyirdi: "Dünyanı idarə edən ayrı- ayrı ölkələrin dövlət başçılarıdır. Onların buraxdığı cüzi səhvlər böyük fəlakətlərə səbəb olur. Müasir dövrdə  Azərbaycanda da bazar iqtisadi sistemi əsasında milli iqtisadiyyatın formalaşıb inkişaf etməsi, iqtisadiyyatda müstəqillikdən sonra keçid dövrünün başa çatması, dəyişən şəraitə və dəyişən tələbə müvafiq olaraq dövlətin iqtisadiyyatı tənzimlənməsi sistemi elmi cəhətdən sistemli təhlilinin qiymətləndirilməsi və yenidən dərk edilərək dəyərləndirilməsi obyektiv zərurətə çevirmişdir. Belə ki, müstəqillikdən sonrakı ilk 3-4 ildə ölkədə rəhbərliyin seçilməsi zamanı idarəçilik bacarığı və təcrübəsi olmayanların gəlməsi, ölkənin iqtisadi vəziyyətini pisləşdirmiş və tənəzzülünə gətirib çıxarmışdır. Ümummilli Liderimiz Heydər Əliyevin xalqın tələbi ilə ölkə rəhbərliyinə yenidən gəlişi əhalini və dövləti böyük risklərdən xilas etdi , bu isə müstəqil Azərbaycan iqtisadiyyatının tərəqqisinə səbəb oldu desək yanılmarıq. Azərbaycan Respublikasının böyük beynəlxalq layihələrdə iştirak etməsi, Böyük İpək Yolunun yenidən bərpası, TRASEKA nəqliyyat dəhlizinin açılması da Ümummilli Liderimizin cəmiyyətə göstərdiyi xidmətlərindəndir. Hazırkı vəiyyətdə müasir Azərbaycan Respublikası özünəməxsus inkişaf istiqaməti ilə gedir. Bu inkişafın əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu inkişafı növbəti mərhələsi isə Heydər Əliyev məktəbinin davamçısı Prezident İlham Əliyev ilə davam etdirmiş və hələ də davam etdirməkdədir. Onun həyata keçirdiyi siyasi, iqtisadi və sosial tədbirlər, imzaladığı fərman və sərəncamlar, Azərbaycan xalqı ilə birbaşa ünsiyyətdə olması, Heydər Əliyev tərəfindən əsası qoyulmuş işlərin məntiqi davamıdır.

Azərbaycanın Prezidenti İlham Əliyev qeyd edir ki, "Biz gələcəyə böyük nikbinliklə baxırıq. Respublikamız Siyasi və ictimai – siyasi vəziyyət baxımından çox sabit ölkədir və ölkəmizə birbaşa xarici investisiyaların qoyulması bunu göstərir. İqtisadi potensialın möhkəmləndirilməsində əldə olunmuş uğurlar göz qabağındadır. Eyni zamanda, bütün bu nailiyyətlərə baxmayaraq, respublikamızda həm siyasi sahədə, həm də iqtisadi sahədə islahatlar davam etdirilməkdədir və davam etdirilməlidir. Çox sevindirici haldır ki, bu il Azərbaycan bir nömrəli islahatçı ölkə kimi böyük maliyyə qurumu olan Dünya Bankı tərəfindən dünya miqyasında tanınır. Bu onu göstərir ki, bizim həyata keçirdiyimiz islahatlarımız həqiqətən çox uğurlu və əhəmiyyətlidir".

Son illərdə ölkədə həyata keçirilən uğurlu islahatlar respublikamızda düzgün iqtisadi siyasətin - fiskal və monetar siyasət - nəticəsində dövlət büdcəsinin artmasına səbəb olmuşdur. Bunda düzgün xarici ticarət, gömrük və vergi siyasətinin həyata keçirilməsi mühüm yol oynamışdır. Bunların hamısı isə ölkənin maliyyə sabitliyinin təmin edilməsi, infrastruktur sahələrinin inkişafı, ekoloji tarazlığın nəticəsi olaraq ölkənin
iqtisadi təhlükəsizliyinin artmasına səbəb olmuşdur. Cənab İlham prezidentliyi dövründə Azərbaycannın iqtisadiyyatının sürətli inkişaf dövrü başlamışdır. Bu isə İqtisadi islahatların kompleks şəkildə aparılması, proqnozlara əsaslanaraq formalaşdırılmış dövlət proqramlarının, regional və beynəlxalq investisiya layihələrinin reallaşdırılması, dünya iqtisadiyyatına inteqrasiya ilə əldə olunmuşdur. Bunların nəticəsidir ki, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu ildən-ilə artmaqdadır.

# I FƏSİL. İQTİSADİ SİYASƏTİN ÜMUMİ XARAKTERİSTİKASI VƏ NƏZƏRİ-MEDOLOJİ ASPEKTLƏRİ

## 1.1. İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini doğuran səbəblərin tarixi mərhələlər üzrə dəyişkən xarakteri

Tarixən dünya iqtisadiyyatında yaranan böhranlar iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün dövlətin müdaxiləsinin nə qədər zəruri olduğunu sübuta yetirmişdir. Demək olar ki, bütün iqtisadi sistemlərdə təsir dairəsindən asılı olaraq dövlətin iqtisadiyyata müdaxiləsi qaçılmazdır. Dövlətin bu müdaxiləsi onun və cəmiyyətin maraqlarını təmin olunmasına yönəlmişdir. Bazar iqtisadiyyatı cəmiyyətin bəzi üzvlərinə sərbəstlik, onların fəaliyyətinə lazımi şərait yaratsa da, eyni zamanda digər üzvlərinin sosial maraqları düşünülmür. Belə ki, yaşlıların, fiziki məhdudiyyətli şəxslərin,kimsəsiz uşaqların həyatlarının normal davam etdirməsi üçün heç bir tədbirlərin həyata keçirilmir. Bununla yanaşı, ətraf mühitin çirklənməsinin, haqsız rəqabətin qarşısının alınması, infilyasiya və onun tərs mütənasiblik təşkil edən işsizliyin azalması, iqtisadiyyatın davamlı inkişafı və s. bu kimi məsələlərin həlli üçün dövlətin həyata keçirdiyi siyasət nəticəsində yaranan çatışmazlıqları aradan qaldırılır. Lakin bu o demək deyidir ki, dövlət istədiyi zaman və istədiyi qədər iqtisadiyyata müdaxilə edə bilər. Buna görə də dövlət tənzimləməsinin minimal və maksimal hədləri vardır.Tənzimləmənin minimum həddi dedikdə, pul kütləsini,xarici effektləri tənzimləmək, ölkə əhalisini ictimai zəruri məhsullarla təmin etmək nəzərdə tutulur. Maksimum təsirlərə isə fiskal siyasət, monetar siyasət, sosial siyasət, xarici iqtisadi siyasət və s. aiddir.

Dövlətin iqtisadiyyata müdaxiləsi və yaxud hansı dərəcədə müdaxiləsi iqtisadçıların mübahisə obyeklərindən biridir. XVIII əsrdə klassik iqtisadiyyatın nümayəndəsi "İqtisadiyyatın atası" adlandırılan Adam Smit öz "Xalqların sərvəti" əsərində vurğuladığı "Gözəgörünməz əl" ideyasını irəli sürərək dövlətin iqtisadiyyata müdaxiləsinə qarşı çıxmış və bazarın öz-özünün tənzimləndiyini vurğulamışdır.O qeyd etmişdir ki, dövlət bazarın normal

fəaliyyətinə mane olur və o, yalnız “gecə gözətçisi” rolunu yerinə yetirməli olduğunu demişdir. Lakin Birinci Dünya Müharibəsində Amerika Birləşmiş Ştatlarlnın İqtisadi vəziyyəti sürətli inkişafla digər ölkələr arasında seçilsə də azad rəqabətli bazar 1929-cu ildə maliyyə bazarlarında böhranla özünü biruzə verdi. Bu ABŞ-da başlasa da öz təsirini onunla ticarət əlaqələri olan ölkələrdə də göstərirdi. Dünya miqyaslı bu böhran məhşur iqtisadiçı A.Smitin irəli sürdüyü fikir, baxmayaraq bir əsrə yaxın özünü doğrultdu, lakin böhranın baş verməsi ilə artıq o öz qüvvəsini itirmişdi desək yanılmarıq. Bu böhranın yaranma səbəbini ingilis iqtisadçısı Con Meynard Keyns məhz azad rəqabətdə görürdü və buna çıxış yolu oaraq dövlətin iqtisadiyyata müdaxiləsini mütləq olduğunu qeyd edirdi. C.M.Keyns eyni zamanda insanlar əldə etdiyi gəlirlərini xərcləməkdən çox qənaətə üstünlük verdiklərindən bazarda tələb qıtlığı yaranır. Bunun üçün isə dövlət iqtisadiyyata əlavə investisiya qoymaqla iqtisadiyyatı canlandırmalıdır. Və beləliklə, Keynsin bu nəzəriyyəsi ölkələrin böhrandan çıxmağa əsas verdi. Artıq dövlət də bazarın iştirakçısına çevrildi. Davamlı inkişafda olan iqtisadiyyatın strukturunda daim stehsal və istehlak arasında müəyyən fərq yaranacaqdır. Əgər bu fərqi aradan qaldırmaq üçün müdaxilə edilməzsə iqtisadiyyat özünü tarazlaya bilməyəcəkdir. Buna görə də bu problem, yalnız dövlət tərəfindən həll olunmalıdır. Amma dövlətin iqtisadi vəzifəsi təkcə, istehsal və istehlak arasındakı fərqi aradan qaldırmaq deyildir.

## 1.2. Müasir iqtisadi siyasət alətləri və onların spesifik xüsusiyyətləri

İqtisadi siyasət hökümət və onun müvafiq institutları tərəfindən müəyyən edilir və tətbiq edilir.Siyasətin məqsədlərinə nail olmaq üçün siyasət aparan orqanların bir sıra siyasi vasitələr və ya alətlər var.Bu alətlər tələb-yönümlü iqtisadi siysət və təklif-yönümlü iqtisadi siyasətə ayrılır. Tələb-yönümlü siyasətə fiskal, monetar və valyuta siyasəti aid etmək olar.

Fiskal siyasət hökumət xərclərinin və vergilərin səviyyəsini qəsdən dəyişdirilməsi və ümumi tələbatın səviyyəsinin dəyişdirilməsi ilə arzu olunan makroiqtisadi məqsədlərə nail olmaqdır. Fiskal siyasət elə bir tənzimləyici siyasətidir ki, nəticədə milli gəlirin və xərclərin strukturuna və gəlirin bölgüsü və yenidən bölgüsünə təsir edir.

Fiskal siyasətin stimullaşdırıcı və məhdudlaşdırıcı olaraq iki növü vardır. Məhdudlaşdırıcı siyasət zamanı hökümətin əsas yönəldiyi istiqamət vergilərin artırılması və ya dövlət xərclərinin kəskin azaldılmasıdır. Vergilər yalnız dövlətin gəlir mənbəyi deyil, həmiçinin dövlət vergi vasitəsilə özəl sektora təsir göstərir. Belə ki, dövlət vergiləri artırmaqla nəinki, dövlət büdcəsinin gəlirlərini artırır, həmiçinin məcmu tələbi azaldır.

Aşağıdakı qrafikdə biz vergilərin tətbiq edilməsinin nəticəsini və vergi yükünün kimlərin daşıdığı aydın görünür. Vergi tətbiq olunmamışdan əvvəl bazar qiyməti P* olduğu halda, dövlət vergi tətbiq etdikdə qiymət P*-dan $P_c$-ə qalxır. Miqdar isə Q*-dan $Q_t$-ə doğru aşağı düşür. Qrafikdə tənlənmiş hissə isə itirilmiş iqtisadi səmərəni göstərir. Göründüyü kimi vergilərin tətbiqi iqtisadi səmərəni azaltsa da, iqtisadiyyyatın sürətli inkişafı zamanı yarana biləcək infilyasiyanın və digər problemlərin yaranmasının qarşısını almaq üçün dövlətin irəli sürdüyü iqtisadi tənzimləmə vasitəsidir. Yəni, baxmayaraq ki, vergi iqtisadiyyatın inkişafına maneə olur, lakin ondan daha  çox mənfi təsirlər qoya biləcək hadisələrin qarşısını almaq üçün ən yaxşı vasitələrdən biridir.

*Qrafik 1*




Vergilərin artması sahibkarların gəlirlərini aşağı saldığından qısa müddətli dövrdə təklif azalır. Eyni zamanda buna uyğun olaraq, əhalinin gəlirlərinin azalması həmçinin, qiymətlərin artması onların tələbinin də azalması ilə nəticələnir. Bütün bunlar qrafikdə özünü qiymətin artması və təklif əyrisinin sola doğru dəyişməsində göstərir.

*Qrafik 2*




Lakin bütün bunlar o demək deyildir ki, dövlət istənilən həddə vergi tətbiq edə bilər. Vergilər büdcə mənbəyinin əsasını təşkil etməyinə baxmayaraq, vergilərin artması büdcənin daha çox olması mənasına gəlmir. Çünki vergilərin artması vergidən yayınmaları da həmiçinin, artırır. Bunu amerikan iqtisadçısının adı ilə adlandırılmış Laffer əyrisində daha aydın görə bilərik. Qrafikdən də göründüyü kimi vergi dərəcələrinin artması yalnız müəyyən həddə qədər büdcənin həcmini artırır. Müəyyən həddən sonra isə vergi dərəcələrinin artmasına baxmayaraq büdcə daxilolmalarını azaldır. Bu da gizli iqtisadiyyatın inkişaf etməsinə gətirib çıxarır. Bütün bunları nəzərə alaraq, dövlət elə bir optimal vergi dərəcəsini tətbiq etməlidir ki, bu iqtisadiyyatda mənfi hallara gətirib çıxarmasın.

*Qrafik 3*




Yuxarıda qeyd etdiyimiz kimi, vergilərin artırılması qısamüddətli dövrdə təklif əyrisini (AS) sola sürüşdürdüyü kimi, istehlakçıların gəlirlərini azaltdığına görə xərclərinin azalmasına səbəb olur. Bu da məcmu tələbi də azaldaraq tələb əyrisini (AD) də sola sürüşməyə səbəb olur.

Məhdudlaşdırıcı siyasətin digər aləti isə dövlət xərcləridir. Dövlət xərcləri dedikdə, dövlətin yeni sosial və istehsal infrastrukturunun yaradılması zamanı çəkilər xərclər, işsizlər, qocalar, fiziki məhdudiyyətli şəxslər və digər aşağı təbəqəli şəxslər üçün büdcədən ayrılan sosial transferlər, subsidiyalar, subvensiyalar və dotasiyalar nəzədə tutulur.Dövlət bu xərcləri artırıb azaltmaqla iqtisadiyyata təsir edərək məcmu tələbi və istehsalı idarə edə bilir. Dövlət iqtisadiyyatın yüksəliş dövründə iqtisadiyyatı təzimlənmək, sabit saxlamaq üçün dövlət xərclərini azaldır. Dövlət xərclərinin azalması ümumi daxili məhsulun həcmində azalmaya gətirib çıxarır. Bunu ÜDM-in riyazi düzturundan daha aydın görə bilərik.

$$\uparrow AD = C + \uparrow G + \dot{I} + NX$$

Burada,

C - istehlak xərcləri ,

G - dövlət xərcləri,

İ - investisiya xərcləri,

NX - xalis ixrac.

Bütün bunları qrafiklə ifadə etsək görə bilərik ki, dövlət xərclərinin azaldılması məcmu tələbi azaldır və tələb qanununa əsasən isə qiymət aşağı düşür. Bununla da istehsal həcmi azalaraq iqtisadiyyatın həcmi kiçilir.

*Qrafik 4*




Bütün bunları ümumiləşdirsək, aşağıdakı qrafikdə olduğu kimi dövlətin məhdudlaşdırıcı fiskal siyasət məcmu tələb və məcmu təklif əyrisinin hər ikisinin qısa müddətli dövrdə sola doğru sürüşməsinə səbəb olur. Bununla da dövlət iqtisadiyyatın həcmini azaldaraq onu stabilləşdirir.

*Qrafik 5*

Fiskal siyasətin digər növü isə iqtisadiyyatın durğunluq dövründə həyata keçirilən stimullaşdırıcı fiskal siyasətdir. Stimullaşdırıcı siyasət zaman isə dövlət yuxarıda dediklərimizə əks olaraq hərəkət edir. Belə ki, distruktiv




siyasət vergilərin artırılması və dövlət xərclərinin azaldılması ilə seçilirdisə, stimullaşdırıcı,başqa sözlə, eksponsionist siyasət isə bunun tamam əksi olaraq, vergilərin azaldılması və dövlət xərclərinin artırılması ilə xarakterizə olunur.

İlk öncə eksponsionist siyasətə vergi tərəfdən baxsaq, vergilərin azaldılması gəlirlərin artmasına səbəb olduğundan istehlak xərclərini artırır, eyni zamanda vergilərin azalması sahibkarları istehsalı artırmağa həvəsləndirir. Beləliklə, dövlət verginin azaldılması ilə iqtisadiyyatı canlandırmış olur.

$$\uparrow AD = \uparrow C + G + \dot{I} + NX$$

Bunu qrafikdə məcmu tələb əyrisinin ( AD1 ) sağa doğru dəyişərək yeni vəziyyət aldığını ( AD2) görə bilərik.

<u>*Qrafik 6*</u>




Dövlət xərcləri baxımından isə istehsalçılara dövlət dəstəyinin - subsidiyaların, subvensiyaların və dotasiyaların, sosial transferlərin artımı da eyniliklə iqtisadi artıma gətirib çıxaran amillərdəndir.

$$\uparrow AD = C + \uparrow G + \dot{I} + NX$$

Dediklərimizi ümumiləşdirsək, görərik ki, stimullaşdırıcı siyasət məcmu tələbi artıraraq sağa doğru sürüşməsinə və ümumi istehsalı artırmağa səbəb olur. Bununla da iqtisadiyyatı canlandırır.

*Qrafik 7*



Digər bir siyasət isə monetar siyasətdir ki, iqtisadiyyata hər bir dövlətin Mərkəzi bankı pul kütləsi vasitəsi ilə təsir göstərir.Pul-kredit siyasətinin əsas məqsədi inflyasiyaya səbəb olmadan davamlı iqtisadi inkişafın və eyni zamanda məşğulluğun təmin edilməsi kimi qiymətləndirilir.

Mərkəzi bankın əsas üç aləti vardır ki, onlar vasitəsilə iqtisadiyyata təsir göstərir. Onlar aşağıdakılardır:

- Faiz dərəcəsi,
- Məcburi ehtiyatlar
- Açıq bazar əməliyyatları

Mərkəzi bankların həyata keçirdiyi siyasətin iqtisadi təsir dairəsinə görə iki növü vardır.Bunlar sərt və yumşaq pul-kredit siyasətləridir.Yumşaq pul siyasəti iqtisadi artımın stimullaşdırılmasına və tələbin canlandırılmasına yönəldmiş pul-kredit siyasətidir. Faiz dərəcəsi ilə pul kütləsinin tərs mütənasib olduğundan yumşaq pul siyasəti zamanı Mərkəzi Bank faiz dərəcələrini aşağı salmaqla, dövriyyədə olan pul kütləsini artırmış olur. Qrafik üzərindən izah etsək, faiz dərəcəsinin i(1)-dən i(2) yə düşməsi pul təklifini S1-də S2-yə doğru artırdığını görə bilərik.

*<u>Qrafik 8</u>*



Nəticədə, daha aşağı faiz dərəcəsi sahibkarlar üçün kreditlərin götürülməsini asanlaşdırdığından iqtisadiyyata investisiya qoyuluşlarının artımına gətirib çıxarır.Bununla yanaşı, məcburi ehtiyat normasının artırıb azaldılması ilə də bu siyasəti həyata keçirmiş olur.Əvvəlcə məcburi ehtiyatların əmanət qəbul edən və kredit verən bankların bu əmanətlərin əvəzində Mərkəzi Bankda saxlamalı olduqları əmanətlərin nisbəti olduğunu qeyd edək. Məcburi ehtiyat normasının azalması kredit verən kommersiya təşkilatlarının kredit vermə imkanlarını arıtırır. Kreditlərin artması həm istehlak xərclərini, həm də investisiyanın artması ilə iqtisadi canlanmaya səbəb olur. Yumşaq siyasətin digər alətlərdən biri də açıq bazar əməliyyatlarıdır. Açıq bazar əməliyyatları Mərkəzi Bank tərəfindən həyata keçirilən qiymətli kağızların alqı-satqısı əməliyyatlarıdır. Bu prosesi Mərkəzi Bank çox vaxt dövlətin qiymətli kağızlarının əsasən banklarla alqı-satqısı ilə həyata keçirir, lakin eyni zamanda özü də həmçinin, qiymətli kağızların emissiyasını edə bilər. Qiymətli kağızların Mərkəzi Bank tərəfindən alınması zamanı dövriyyədəki pul kütləsi artır. Bundan başqa yumşaq pul siyasəti milli valyutanın məzənnəsinin ucuzlaşmasına gətirib çıxarır ki, bu da öz növbəsində ixracı stimullaşdırır.

Yumşaq pul siyasəti həm inflyasiya artım tempini sürətləndirir, həm də inflyasiya səviyyəsinin dəyişkən xarakter almasına səbəb olur. Həmçinin, inflyasiya səviyyəsinin gözlənilmədən artıması borc verənlərə qarşı işləyir və beləliklə, bazarda borc vasitələrinin həcminin də aşağı düşməsinə gətirib çıxarır. Inflyasiya səviyyəsindəki gözlənilmədən azalmaların baş verməsi isə əksinə, borc verənlərin mənafeyinə işləyən faktordur. Bununla bankların borc portfelinin keyfiyyətinin azalması baş verir, onların fəaliyyətinə mənfi effekt göstərir və hətta onların fəaliyyətinin dayandırılması da səbəb ola bilər.

Monetar siyasətin digər növü yuxarıda da qeyd etdiyimiz kimi sərt pul siyasətidir. Sərt pul siyasəti inflyasiyanı məhdudlaşdıraraq iqtisadiyyatı

tənzimləyən siyasədir. Sərt pul siyasətini həyata keçirən zaman Mərkəzi Bank kommersiya banklarının verdiyi kreditlər üzrə faiz dərəcəsini yüksəldir, qiymətli kağızları sataraq dövriyyədəki pul kütləsini azaldır, milli valyutanın məzənnəsinin artmasına şərait yaradır, bankların kredit verməsini məhdudlaşdırır. Qrafikdə də göründüyü kimi faiz dərəcəsinin i(1)-dən i(2)-yə qalxması nəticəsilə pula olan tələbin azalması pula olan təklifin də azalmasına səbəb olmuşdur. Bu da pula olan təklif əyrisinin sola doğru yerdəyişməsinə gətirib çıxarmışdır.

*Qrafik 9*




Sərt pul siyasəti inflyasiya səviyyəsinin azalmasına və eyni zamanda,faiz dərəcələrinin də azalmasına səbəb olur. Nəticədə depozitlərin səviyyəsinin azalması ilə müşahidə olunur ki, bu da ayrı maliyyə qeyri-sabitliyinə gətirib çıxara bilər. Sərt pul siyasəti öz funksiyasını itirdiyi halda və real faiz dərəcələrinin yüksəlməyə davam etdiyi vəziyyətdə maliyyə qeyri-sabitliyi qaçınılmazdır.

Mərkəzi banklar bu siyasəti iki formada reallaşdırırlar: tənzimləyici və pul yaratma funksiyası. Tənzimləyici funksiya ilə birbaşa, pul yaratma funksiyası ilə isə dolayı yolla pul bazarına təsir edir. Birbaşa pul siyasətinin alətlər vasitəsilə mərkəzi banklar faiz dərəcəsinə və yaxud depozit və kreditin

səviyyəsinə məhdudiyyət qoymaqla müdaxilə edir. Dolayı pul siyasəti alətləri ilə isə bazarın tarazlıq səviyyəsinə təsir etməyə çalışır. Müasir dövrdə Mərkəzi banklar iqtisadiyyatı tənzimləmək üçün birbaşa pul siyasətindən deyil, daha çox dolayı vasitələrdən istifadə edir. Dolayı pul siyasəti birbaşa müdaxilədən daha yumşaq bir vasitədir.

## 1.3. Fərqli iqtisadi siyasət konsepsiyaları əsasında formalaşmış inkişaf modelləri

Tam bir sistem təşkil edən iqtisadi model real vəziyyətə əsaslanan öz məqsədi - iqtisadi si-ya-səti həyata keçirməyi qarşıya qoy-ur. İqtisadi Mo-del dövlətlərin iqtisadi in-ki-şa-fının və müstəqilliyinin təminatıdır.

Milli İqtisadi Model cəmiyyətin tələbatının ödənilməsi barəsində ölkələrin bunun üçün lazımlı olan mal və xidmətlər istehsal etmək qa-bi-liy-yə-ti-nə ma-lik olma-sının, xərclərini daxil-i və xarici borclanma olmadan öz xərclərini təmin edilməsidir. Buna ona görə milli model deyilir ki, müxtəlif dövlətlərin özlərinin müxtəlif iqtisadi, etnik, sosial və sair aşağıda qeyd olunanlar kimi xüsusiyyətlər əsas götürülür:

- iqtisadiyyatda dövlətin rolu,
- dövlətin sosial siyasəti,
- maliyyə və vergi siyasəti,
- pul-kredit siyasəti,
- valyuta siyasəti
- xarici ticarət siyasəti

İqtisadi inkişaf modelinin müsbət nəticələri verməsində Dövlətin vəzifələrindən biri də qiymətli kağızlar bazarını tənzimləməkdir. Böyük sərmayə qrupları olan bazarlarda qeyri-təkmil rəqabətin olması qaçılmazdır. İnhisarlaşmanın nəticəsində meydana çıxan yeni quruluş səmərəsiz olan bir iqtisadi sistemi ortaya çıxarır.

Dövlət bir tərəfdən aşağı gəlirli əhalini dəstəkləyərkən, sosial islahat və proqramlar vasitəsilə onlara kömək göstərərsə, bu iqtisadiyyatın artımına

şərait yaratdığına görə digər tərəfdən isə göstərdiyi yardımdan daha çoxunu vergi şəklində istehsalçıdan alır.

İnkişaf etmiş ölkələrin bazar iqtisadiyyatının üç əsas modeli formalaşıb: liberal , sosial yönümlü və sosial-demokratik.

Bazar iqtisadiyyatının bu modelləri ümumi və bir sıra özünəməxsus xüsusiyyətlərə malikdir. Ümumi əlamətlərə fərqli mülkiyyət növlərinin – xüsusi, ictimai, dövlət olması; rəqabət və dövlətin dəstəyi. Ölkənin tarixi, mədəniyyəti, dini baxışı, siyasi xarakteri spesifik xüsusiyyətlər ilə əlaqədardır. Dövlət maliyyə bazarının təşkili, iqtisadiyyatın tənzimlənməsində və sosial məsələlərin həllində müxtəlif rol oynayır. Dövlət həmçinin, sosial ədaləti, həm də sosial müdafiəni təmin edir. Bunun üçün dövlətin iqtisadi müdaxiləsinin optimal həddi müəyyən olunmalıdır. Lakin sosial-iqtisadi vəziyyətindən və inkişaf səviyyəsindən asılı olaraq bu optimal səviyyə ölkədən ölkəyə fərqlənir.

Amerikan modeli kimi tanınan liberal model xüsusi mülkiyyətin üstünlüyü, qanunvericiliyin bazar subyektlərinin sərbəstliyinin təmin edilməsi, dövlətin iqtisadi təsirinin minimum olması, sosial xərcləri işsizlərə və çox aşağı həyat səviyyəsində olanlara yönəldilməsi və ümumi daxili məhsulda dövlət büdcəsinin az olması ilə digər modellərdən fərqlənir.

Sosial yönümlü modelə eyni zamanda, alman modeli də deyilir.Bu model dövlətin iqtisadiyyata müdaxiləsi, cəmiyyətə qeyri-istehsal sahəsində xidmətin ödənişsiz göstərilməsi, işsizliyin minimum həddə çatdırılması, milli gəlirdə büdcənin əhəmiyyətli hissəsinin tutması və iqtisadiyyata daha çox monetar siyasət vasitəsilə müdaxilə olunması kimi xüsusiyyətlərə malikdir.

Növbəti model sosial demokratik modeldir ki, bu model də isveç modeli adlandırılır. Prinsip etibarı ilə sosial-yönümlü modelə oxşayır. Lakin

özünəməxsus xüsusiyyətləri də vardır. Məsələn, dövlət mülkiyyətinin çox olması, əhalinin təbəqələşməsinin azaldılması, məşğulluğun azaldılması və s.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA YERİDİLƏN İQTİSADİ SİYASƏT TƏDBİRLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri və iqtisadi idarəetmə sahəsində dövlət maraqları

Azərbaycanın coğrafi mövqeyindən asılı olaraq, torpaqlarının münbitliyi, iqlim şəraiti ilə yanaşı, təbii sərvətləri ilə,xüsusilə neft ilə zəngin olması tarixən iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynamışdır. Hələ XIX əsrdə neft sənayesinin artması, digər ölkələrlə yeni iqtisadi əlaqələrin artması da iqtisadiyyata təsirsiz qalmamışdır. Həmin dövrlərdə sənaye üsulu ilə qazılan neft quyusunun ilk dəfə fontan vurması ilə iqtisadiyyatda yeni dönüş yaratmışdır. Dünyada istehsal olunan neftin yarıdan çoxu Bakının payına düşürdü. Neft istehsalının artması onun ixracı üçün dəmiryolu, gəmiçilik və boru nəqliyyatının inkişafına səbəb olmuşdur. Bakı-Batumi boru kəməri də həmin dövrlərdə çəkilmişdir. Neft istehsalı ilə yanaşı, pambıq, balıq, ipək və elektrik enerjisi istehsalı da artmış, Rusiya imperiyası tərkibində olduğundan onun sənayesinin əsas hissəsini təşkil edirdi.Birinci dünya müharibəsi illərində Azərbaycana olan xarici hərbi müdaxilə, sonrakı illərdəki vətəndaş müharibəsi, sosialist inqilabının dağıdıcı hadisələri və bolşeviklərin ermənilərlə birləşərək Azərbaycan xalqına qarşı soyqırımı nəticəsilə iqtisadiyyatın aparıcı sahəsi - sənayenin dağılmasında özünü qabarıq göstərdi. Sənayenin əsasını təşkil edən neft və onunla əlaqəli olan sahələrlə yanaşı pambıqçılıq, şərabçılıq, ipəkçilik və s. əhəmiyyətli sahələrində istehsal kəskin surətdə enmişdi, müəssisələrin əksəriyyəti dağılmışdı. XX əsrdə iqtisadiyyatın daha əhatəli və böyük yüksəlişi Azərbaycanın sovet hakimiyyəti altında olan illərinə təsadüf edir. Bu illərdə iqtisadiyyatın əksər sahələri əvvəlki illərlə müqayisə etsək, onun sürətlə və kompleks inkişaf etdiyini,

güclü sənaye potensialının yarandığını görə bilərik. Bu illərdə yeni bir siyasi quruluşun yaranması, ictimai mülkiyyətin yaradılması ilə əlaqədar bir sıra çətinliklər ortaya çıxmışdı. Azərbaycan İkinci dünya müharibəsindən əvvəl də, sonra da Sovet İttifaqının neft tələbatının əsas hissəsini ödəyirdi. Müharibədən sonrakı illərdə də Azərbaycan sənayesi inkişaf etmiş, yeni sənaye müəssisələri yaranmışdır. Sumqayıt boru, alüminium və sintez-kauçuk zavodları, Daşkəsən filiz saflaşdırma kombinatı, Gəncə alüminium zavodu, Mingəçevir su-elektrik stansiyası və digər müəssisələr tikilib istifadəyə verilmişdi. 1980-ci illərdə SSRİ-nin yenidən qurma siyasəti Azərbaycana təsirsiz ötüşməmişdir.

Azərbaycanın iqtisadiyyatı Sovet İttifaqı tərkibində olarkən yüksək inkişaf etsə də, lakin bu inkişafın səviyyəsi düzgün qiymətlindirilmirdi. Müstəqilliyi qazanmamışdan əvvəlki illərdə , iqtisadiyyatın inkişafı stabil dövr keçməmişdir. Ölkədə 1960-70-ci illərdə iqtisadi böyümə nisbəti 1970-80-ci illərə nəzərən aşağı idi. 1980-1990-cı illərdə isə bu nisbət sürətli azalma trendi göstərmişdir.

1991-ci ildə SSRİ-nin dağılması ilə Azərbaycan iqtisadiyyatı yeni bir istiqamətdə, fərqli iqtisadi sistemdə formalaşmağa başladı. Lakin Azərbaycan Respublikası öz müstəqilliyini əldə etsə də, Sovet İttifaqının hakimiyyəti altında olduğu illərin öz təsiri hələ də qalmqda idi. Bu onun istehsal prosesində malların keyfiyyətsiz və adam başına düşən hissəsinin az olması ilə seçilirdi.

Müstəqillikdən sonrakı dövrün iqtisadi inkişaf cəhətdən üç dövrü fərqləndirirlər:

- Birinci dövr (1991-1994)
- İkinci dövr (1995-2003)
- Üçüncü dövr (2004 və sonrakı dövr)

**Birinci mərhələ**. SSRİ-nin dağılması nəticəsində Azərbaycanda mərkəzi idarəetmə dağılmış yeni bazar iqtisadiyyatına keçid dövrünə qədəm qoymuşdur. Müstəqillik qazanmaq nə dərəcədə sevindirici hal olsa da, həmin vaxtlar bir əsrə yaxın ölkənin planlı iqtisadiyyat əsasında fəaliyyət göstərməsi öz mənfi təsirini göstərirdi. Belə ki, həmin dövrdə mərkəzin planı ilə istehsal edən müəssislərə öz fəaliyyətlərini demək olar ki dayandırmışdı. SSRİ-nin dağılması onun tərkibindəki digər dövlətlərlə əlaqələrin kəsilməsinə, bununla da Azərbaycan xarici bazarlarını itirməsinə gətirib çıxarmışdır. Ermənistanla müharibənin olması, strateji əhəmiyyətli və təbii ehtiyatlarla zəngin olan torpaqlarımızın itirilməsi sənayenin inkişafı üçün lazım olan xammal mənbəyinin azalmasına səbəb olmuşdur. Ölkədə iqtisadi sistemin dəyişməsi ilə əlaqəli olaraq, iqtisadi böhran yaranmışdır. İnfilyasiyanın həddi artıq dörd rəqəmlərlə ifadə olunurdu. Bütün bunlar isə nəinki iqtisadiyyatın inkişafına maneə olmuşdur, eyni zamanda işsizliyin sürətlə artmasına və əhalinin rifahının aşağı düşməsinə səbəb olurdu. Müstəqillikdən sonraki ilk 3-4 il Azərbaycanın iqtisadi, sosial və siyasi problemlərlə üz-üzə qalmağı ilə yadda qalmışdır. Həmin illərdə ÜDM əvvəlki illərə nisbətən yarıya qədər azalmışdır.

İqtisadiyyatın bu vəziyyətində dövlətin müdaxiləsinin yalnış istiqamətdə olması daha da ciddi problemlərə gətirib çıxarırdı. Bu problemlər istehsalın sürətli şəkildə azalmasına, qiymətlərin yüksəlməsinə, bundan başqa dövlət büdcəsində ciddi defisit yaranmasına səbəb olmuşdur. Vergi sistemindəki çatışmazlıqlar da büdcə gəlirinin azalması ilə nəticələnmişdir. Dövlətin iqtisadiyyatın sahələrinə güzəştli kreditlərin və subsidiyaların verilsə də, onlara nəzarət olunmadığından gözlənilən nəticələrin özünü doğrultmamışdı.

Bütün bunların qarşısını almaq üçün dövlət yeni qanunvericilik aktları qəbul edirdi. Məsələn, 1991-ci ildə Özəl Mülkiyyət Qanunu, 1992-ci ildə Əlavə Dəyər Vergisi tətbiq olunmuşdur. Bankların fəaliyyətini tənzimləmək

üçün isə Milli Bank Qanunu qəbul olunmuşdur. 1993-cü ildə müəssisələrinin özəlləşdirilməsi ilə bağlı qanunlar qüvvəyə minmişdir. 1994-cü ildə artıq yeganə valyuta vahidinin - manat olmasına qərar verilmişdir. Həmin ilin mayında Ermənistanla atəşkəsin imzalanması ilə iqtisadi sabitlik yaranmşdır.

**İkinci mərhələ**. 1993-cü ildən sonra Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə yeni islahatlar keçirərək iqtisadi vəziyyəti nisbətən yaxşılaşdırmışdır. Torpaq islahatının keçirilməsi özəl mülkiyyətin payını artırmış, kənd təsərrüfatının inkişafına yol açmışdır. Belə ki, kənd təsərrüfatı ilə məşğul olanların torpaq vergisindən başqa digər vergilərdən 5 il müddətində azad olunması, əvvəlki vergi borclarının bağışlanması və yanacaq və enerji ilə güzəştli təmin olması kimi məsələlər öz əksini tapmışdır.

Ölkənin iqtisadi inkişafına xarici investisiyanın cəlb olunmasının əhəmiyyətli təsiri vardır. Xarici invesitiyanın cəlb olunması dövlətin siyasi sabitliyindən asılıdır. Bununla da, Heydər Əliyev xarici investisiyanı ölkəyə cəlb etməklə iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün öz siyasi səriştəsi nəticəsində 1994-cü ildə atəşkəsin imzalanması ilə ölkə siyasi sabitliyi əldə etdi. Siyasi sabitliyin əldə olunmasından sonra dünyanın böyük neft şirkətləri ilə böyük əhəmiyyət kəsb edən "Əsrin Müqaviləsi" imzalandı. Bununla da, Azərbaycana xarici valyutanın daxil olmasına və neft sənayesinin inkişafına səbəb oldu. Növbəti ildə Konstitusiyanın qəbul olunması iqtisadiyyatı hüquqi məsələlərinin əsasını təşkil edirdi. Həmin il Azərbaycanın iqtisadi tənzimlənməsinin əsası qoyuldu desək, yanılmarıq.

Sərt pul siyasətinin tətbiqi nəticəsində infilyasiya azalmış və ÜDM-də artım müşahidə olunmuşdur.

1995-ci ildə sağlam bazar mühitini formalaşdırmaq və qoruyub saxlamaq üçün haqsız rəqabət haqqında qanun qəbul edilmişdir. Həmin ildə maliyə stabilliyinə nail olmaq üçün Beynəlxalq Valyuta Fondundan yardım

alınmışdır. Həmçinin eyni ildə kiçik müəssisələrin özəlləşdirilməsinə dair qanun imzalandı və növbəti ildə artıq qanunun icrasına başlanıldı. 1996-cı ildə bank sisteminin yenidən təşkili üçün Milli Bankla bağlı qanun qəbul olumuş, bununla da qiymətli kağızlar bazarı öz fəaliyyətinə başlamışdır. 1997-ci ildə Gömrük haqqında qanunla yeni sdələşdirilmiş vergi tətbiq olunmağa başlanıldı. Növbəti ildə isə enerji sektorunu bərpa etmək üçün başqa bir - elektro-energetika haqqında qanun imzalanmışdır. Qiymətli kağızlar bazarının fəaliyyət göstərməsi onun fəaliyyətinin tənzimlənməsi zərurətini qarşıya qoyduğundan bunun haqqında qanun da qəbul olundu. Məşğulluğun təmin olunması iqtisadiyyatın əsas problemlərindən biri olduğundan bunun tənzimlənməsi də diqqət mərkəzində idi. Buna görə də, 1999-cu ildə Məşğulluq haqqında qanun qəbul olundu. Bundan başqa həmin ildə Neft Fondunun qurulması haqqında sərəncam ilə neftdən gələn gəlirlərin bir sistemdə toplanması və daha düzgün xərclənməsinə əsas verdi.

İnsanların yaşaması üçün dünya üzrə gündəlik minimum gəlir səviyyəsi 86 dollar idisə, Azərbaycanda əhalinin yarısının gündəlik gəliri sadəcə 1 dollar idi. Orta aylıq əmək haqqısı da yenə dünya göstəricisindən aşağı olduğuna görə ölkəmizdə yoxsulluq səviyyəsinin yüksək olduğunu göstərir. Bu problemlərin aradan qaldırılması üçün 2001-ci ildə əhalinin rifahının artırılması sahəsində 2003-2008-ci illəri əhatə edən 5 illik yoxsulluğun azaldılması üzrə dövlət proqramı qəbul edildi.

Aparılan bu islahatlar iqtisadi tənəzzülün qarşısını alaraq yeni biznes mühitinin yaranmasına, xarici investisiyaların diqqətini özünə çəkməyə başlamışdır.

ÜDM-in artmasında kənd təsərrüfatının təsiri böyükdür. Belə ki, 1995-ci ildə kənd təsərrüfatı 800 milyon manat olsa da, 8 il ərzində bu rəqəm 2 dəfəyə qədər artmışdır. Bu da kənd təsərrüfatının inkişafına nə qədər

əhəmiyyət göstərilməsini, diqqət mərkəzindən kənarda qalmadığını göstərirdi. KƏnd təsərrüfatına olan subsidiyaların ayrılması, vergilərdən azad olması nəinki onun geriləməsinin qarşısını almış, hətta onun inkişafını yarıbayarı artırmışdır.

*Qrafik 11*




Beynəlxalq münasibətlərin artması, dünya ölkələri ilə əlaqələrin artması ölkəyə ola marağın yaranmasına , bu da xarici investisiyanın miqdarını artırmışdır. Həmçinin, görülə tədbirlər yerli sahibkarların da marağına yaratmış və onların fəaliyyəti üçün sağlam mühit formalaşmışdır. Bunu qrafikdə də aydın görə bilərik ki, 1998-cildən başlayaraq investisiyaların həcmi sürətlə artmağa başlamışdır.

*Qrafik 12*




Azərbaycan iqtsadiyyatına qoyulan sərmayələrdə histoqramda göstərilən kimi xarici investisiyalar üstünlük təşkil edirdi. 1999-cu ildə qoyula investisiyaların 80%-ə qədərini xarici investisiyalar təşkil edirdi. Dörd il ərzində ümumi investisiyaların həcmi 5 dəfə artmışdır. Yerli investisiyanın həcmi 10%-ni təşkil etsə də, xarici investisiyaların həcmi artaraq 90% faiz olmuşdur. Bu da xarici dövlətlərin Azərbaycana olan marağının göstəricisidir.

*Qrafik 13*




1999-cu ildən investisiyaları artan istiqamətdə olması həmin ildən yeni müəssisələrin açılmasına, bu isə öz növbəsində yeni iş yerlərinin artmasına gətirib çıxarmışdır. Bu da iişsizliyin kəskin sürətdə azalmasına, məşğulluğun artmasına gətirib çıxarmışdır.

*Qrafik 14*




İş yerəlrinin artması əhalinin gəlirlərini artırmış, əhalinin rifah səviyyəsini artırmşdır. 1995-2003-cü illərdə əhalini gəlirləri 20 manatdan 137

manatadək artmışdır. Bu da təxminən əməkhaqqının 7 dəfə artması deməkdir. Gəlirlərin artması da tələbin, əhalinin alıcılıq qabiliyyətini artırmışdır.

*Qrafik 15*




İstehsalın artması onun xarici bazarda satılmasını zəruri etdi, bununla da ölkənin gəlirlərinin armasına gətirib çıxarmışdır. Dövrün əvvəlinə nisbətən dövrün sonunda ixracın həcmi 5 dəfəyədək artmışdır.

*Qrafik 16*



İxracla yanaşı idxalı da qeyd etmək lazımdır ki, demək olar ki, idxal da ixracla eyni nisbətdə artmışdır. Nə qədər ixac artsa da, bu onu göstərir ki, bir çox ehtiyaclarımızı hələ də ödəyə bilmirdik.

*Qrafik 17*




Müstəqillikdən sonra infilyasıyanın həddi 1700%-i keçsə də, artıq növbəti illərdə ümumilli liderimiz Heydər Əliyevin yeritdiyi uzaqgörən siyasəti nəticəsində artıq infilyasınanın həddi azalmışdır.

*Qrafik 18*



Bütün bu islahatlar nəticələri ümumi olaraq ÜDM-in artımında öz əksini göstərir. Aşağıdakı qrafikdə ÜDM-in artım qrafiki göstərilmişdir. 1995-ci ildən etibarən yeni iş yerlərinin açılması, istehsalın artırrılması, investisiyaların cəlb olunması, kənd təsəsrrüfatına göstərilən dövlət dəstəyi və digər aparılan siyasətin nəticəsi olaraq ÜDM artmağa başlamışdır. 1995-ci ildə ÜDM-in 88% olsa da dövrün sonunda bu rəqəm 111%  fazi olmuşdur. Bu da ölkə prezidentinin yürütdüyü siyasətin düzgün olduğundan xəbər verirdi.

*Qrafik 19*




**Üçüncü mərhələ.** 2003-cü ildən etibarən Heydər Əliyevin davamçısı İlham Əliyev onun siyasətini davam etdirərək iqtisadiyyatı sürətlə inkişaf etdirmiş və hal hazırda da bu siyasəti davam etdirir. Ölkənin neftlə zəngin olması bu və bununla əlaqəli sahələrin inkişafına şərait yaradırdı. Buna baxmayaraq, artıq neft deyil, qeyri-neft sektorunun inkişafı üçün tədbirlər görülməyə başlanılmışdır.

2004-cü ildə regionların sosial-iqtisadi inkişafı sahəsində 2004-2008-ci illəri əhatə edən dövlət proqramı qəbul olundu. Bu proqram kənd təsərrüfatı başda olmaqla, qeyri-neft sektorunun inkişafı, məşğulluğun artırılması, həyat səviyyəsinin artmasına yönəlmişdir. Proqramın nəticəsində nəzərdə tutulmuş

məqsədlərdə irəliləyişlər olmuş və 2009-cu ildə bunun davamı olaraq 2009-2013-cü illəri əhatə edən regionların inkişafı üçün yenidən 4 illik dövlət proqramı qəbul olunmuşdur. Regionların sosial-iqtisadi inkişafı üçün bu tədbirləri davamlı təşkil edilirdi və 2014-2018-ci illərdə də davam etməkdədir.

Həyata keçirilən islahatların nəticəsini qrafiklə göstərsək 2004-cü ildən ÜDM-in artması müşahidə olunmuşdur. Lakin 2008-ci ildə ABŞ-da başlayan maliyyə böhranı bütün dünya ölkələrinə təsir etmiş vəbununla da neftə olan tələbin azalması, neftin qiymətinin aşağı düşməsi ilə nəticlənmişdir. Azərbyacan da neft ölkəsi olaraq ÜDM-in böyük hissəsini təşil edən neftin qiymətinin düşməsi ÜDM-in artım nisbətinin azalmasına gətirib çıxarmışdır. 2014-cü ildə nefi qiymətinin və manatı məzənnəsinin aşağı düşməsi ÜDM-in nisbətən aşağı düşməsinə səbəb olmuşdur.

*Qrafik 20*




Sənaye sahəsinə qoyulan investisiyalara nəzər yetirsək, investisiyaların artıma doğru getdiyini asanlıqla görmək mümkündür. 2004-cü ilə nisbətən 10 il sonra investisiyaların həcmi 2 dəfə armışdır. Bütün bunlar dövlətin iqtisadi

inkişafa nə qədər diqqət yetirdiyinin, siyasətinin nə qədər düzgün olduğunun göstəricisidir desək, yanılmarıq.

*Qrafik 21*




İnvestisiyaların tərkibinə baxsaq, xarici investisiyanın üstünlük təşkil etdiyini görərik. Əvvəlki illərə nisbətən 2008-2009-cu illərdə xarici investisiyanın payı azalmış, yerli investisiya isə artmışdır. Maliyyə böhranının nəticələri həmin illərdə xarici investisiyaların payında azalma ilə müşahidə olunmuşdur. Lain növbəti illərdə həm daxili, həm də xarici investisiyanın həcmi artmışdır. Xarici investisiyanın artması digər ölkələrin Azərbaycana olan marağının artması, Azərbaycanın iqtisadi əlaqələrinin genişlənməsinin nəticəsidir.

*Qrafik 22*




Sənaye müəssislərin artması, ona qoyulan investisiyalar sənayenin inkişafından xəbər verir. Sənayenin inkişafı bu sahədə çalışanların sayını artırdığı kimi bu sahədə çalışanların orta əmək haqqısını da artırmışdır. 2004-cü ildə orta aylıq əmək haqqı 190 manata yaxın idisə, artıq bu əməkhaqqı 900 manatı keçmişdir. Orta aylıq əməkhaqqının yüksəlməsi əhalinin yaşayış səviyyəsinin da yaxşılaşmasına gətirib çıxarır.

*Qrafik 23*



Neftdən gələn gəlirlər ilə qeyri-neft sektorunun inkişafı qarşıda duran məqsədlərdəndir. Bunun üçün bir sıra tədbirlər də görülməkdədir. 2004-cüildə Aqrolizin haqqında qanun qəbul edilmişdir. Bu qanuna əsasən ağır texnikanın güzəştli şərtlərlə kənd təsərrüfatında çalışanlara istifadəyə verilirdi. Hər bir dövlətin qarşısında duran məqsədlərin ən əsası da əhalisinin ərzaqla təminatının olmasıdır. Azərbaycan da həmçinin bunun üçün 2008-2015-ci illərdə ərzaq məhsulları ilə əhalinin etibarlı təminatına aid Dövlət Proqramı qəbul olundu. Həmçinin həmin illəri əhatə edən yoxsulluğun azaldılmasına və davamlı inkişafına dair Dövlət Proqramı da qəbul olundu. Bütün bunlar kənd təsərrüfatı məhsuluun həcminin artmasına və daim inkişafına gətirib çıxarmışdır. İqtisadiyyatın bir hissəsi olan kəndə təsərrüfatı aşağıdakı qrafikdə əks olunduğu kimi davamlı olaraq artmaqdadır.

*Qrafik 24*




Barama, şəkər çuğunduru, pambıq və tütün istehsalçılarına dövlət büdcəsinin vəsaiti hesabına subsidiyanın verilməsi iqtisadi inkişaf üçün dövlətin həyata keçirdiyi siyasətin bir hissəsidir. Bundan başqa 2018–2025-ci illər üçün sitrus meyvəçiliyinin inkişafına, çəltikçiliyin inkişafına,

baramaçılığın və ipəkçiliyin inkişafına dair Dövlət Proqramları qəbul edilmişdir. 2018–2027-ci illər üçün çayçılığın inkişafına, 2017-2022-ci illər üçün həm pambıqçılığın inkişafına, həm də kənd təsərrüfatı kooperasiyasının inkişafına, 2012-2020-ci illərdə üzümçülüyün inkişafına dair Dövlət Proqramları qəbul olunmuşdur.

Bütün görülən tədbirlərin məqsədi istehsalı artırmaq və ixracın stimullaşdırılmasına nail olmaqdır. 2004-cü ildən nisbətən ixrac artmışdır. Lakin 2014-cü ildən neftin qiymətinin aşağı düşməsi ixracı azaltmışdır.

*Qrafik 25*




Bu qədər dövlət proqramlarına, dövlət dəstəyinə baxmayaraq ölkə hələ də idxaldan asılı vəziyyətdə qalmaqdadır. İlbəil idxalın həcmi əhəmiyyətli dərəcədə artmaqdadır.

*Qrafik 26*




Təhsil də heç də diqətdən kənarda deyildi, bu sahə ilə bağlı da bir sıra tədbirlər həyata keçirilirdi. Belə ki, 2007-2015-ci illəri əhatə edən Dövlət Proqramı qəbul edildi ki, bu proqramda əsas məqsəd savadlı kadrların yetişdirilməsi, savadlı gənclərin dünyanın öndə gedən ölkələrində təhsil əldə etmək imkanını verirdi. Azərbaycanın təhsilə verdiyi diqqət BMT-nin İnsan inkişafı İndeksinin özündə əks etdirdiyi sağlamlıq, təhsil və rifah səviyyəsinə görə 2015-ci ildə 78-ci pilləyə qədər qalxmışdır. Tələbələrin 1995-ci ildə 99 min tələbə varkən, 2016-cı ildə tələbələrin sayı 164 minə çatmışdı. Ali təhsil müəssisələrini bitirmiş mütəxəssislərin sayı 20 il ərzində 2 dəfə artmışdır. Magistr təhsili alanlar min nəfərdən 6 minə qədər artmışdı. 2017-2021-ci illəri əhatə edən Dövlət Proqramı cəmiyyətin sahələrində gənclərin iştirakına şərait yaratmaq, onların yaradıcı potensialının üzə çıxarılmasını dəstəkləmək, gənclərin sağlamlığını qorumaq, onların təhsil və karyera məsələlərinə diqqəti artırmaq, müasir texnologiyalarından faydalı istifadə etmək, könüllülük hərəkatını inkişaf etdirməkdir.

Monetar siyasətə gəldikdə Azərbaycanın Mərkəzi bankı uçoot faiz dərəcələrini 2016-cı ildə 15% etmişdirsə, bu gün bu rəqəm 11%-ə qədər

enmişdir. Bu da onu göstərir ki, Mərkəzi bank yumşaq pul siyasəti həyata keçirir və bununla, iqtisadiyyatı canlandırmağa çalışır. Valyutanın tənzimlənən-üzən məzənnə olduğunu nəzərə alaraq faiz dəhlizi 2017-ci ildə 10%-20% arasında dəyişirdisə, artıq bu gün faiz dəhlizi 8%-14% arasında dəyişməkdədir. Mərkəzi bankın irəli sürdüyü yumşaq pul siyasəti nəticəsində faiz dərəcələrinin azalması iqtisadi inkişafa xidmət göstərir.

2017-ci ildə pul siyasətinin əsas hədəfi olan pul bazası manatla 10.5% artmışdır. Pula tələbin təmin edilməsi əlaqədar olaraq Mərkəzi bank müxtəlif müddətli açıq bazar əməliyyatlarını aktiv saxlamışdır. 2017-ci ildə illik ortalama inflyasiya 13.4% olmuşdur. 2018-ci ildə də inflyasiyanın azaldılması Mərkəzi Bankın pul siyasətinin əsas məqsədini təşkil edir. Bu ildə valyuta bazarında stabilliyi təmin etməlidir. Fiskal siyasətdəki kimi Mərkəzi Bank da bu ildə yumşaq pul siyasətini davam etdirməkdədir.

## 2.2. Beynəlxalq təsərrüfat sisteminə inteqrasiyası kontestində müasir çağırışlar və iqtisadi siyasətdə yeni prioritetlər

Hər bir ölkənin təbii ehtiyatları, coğrafi mövqeyi, əmək ehtiyatlarının və s. fərqli olması onun iqtisadi vəziyyətinə də təsir göstərir. Mövcud iqtisadi vəziyyətin fərqli olması da dövlətin də fərqli tərəfdən iqtisadiyyata təsir göstərməsini tələb edir. Məsələn, vergi sistemi, vergi növləri və dərəcələri eyni olmadığından həyata keçirilən vergi siyasəti də eyni ola bilməz. Buna görə də dünyada özünəməxsus iqtisadi modeli ilə seçilən və davamlı inkişaf edən dövlətlərdən bir neçəsi ilə tanış olaq.

İlk öncə təbii sərvətlərinin az olmasına baxmayaraq dünyada öz inkişafına görə qabaqcıl yerlərdə olan Yaponiyanın iqtisadi modelinə nəzər yetirək.

Yaponiya 5 trilyonluq ÜDM ilə yalnız ABŞ və Çindən geri qalır. Yaponiyanın iqtisadiyyatı XX əsrin II yarısından sonra əhəmiyyətli dərəcədə canlanmağa başlamışdır. Lakin 2008-ci il bu ölkə üçün iqtisadi artım mənfiyə düşmüşdür. İqtisadi artım 2016-cı ildən müsbət olmağa başlamışdır.

27 milyon əhalisi olan Yaponiya adam başına düşən ÜDM 42,700 $ ilə dünyada 41-ci yerdə qərarlaşmışdır. Bu isə yaşayış standartlarının ABŞ-dan az olmasına baxmayaraq, Çin və Cənubi Koreyadan yüksəkdir. Yaponiya dünyada avtomobil, polad məhsulları və yarımkeçiricilərin ixracı ilə tanınır. Neft və təbii qazı isə idxal edir.

1960-cı ildən 1980-ci ilə qədər iqtisadi artım 10%-dən 4%-ə qədər enmişdir. Yapon hökuməti bu azalmanın qarşısını almaq üçün 2000-ci illərin əvvəlində pul təklifini artırmaq üçün yapon yenləri emissiyasını artıraraq, iqtisadi artımın azalmasının qarşısını aldı. 2005-ci ildə sıfır faiz siyasəti həyata keçirilsə də, qiymətlərdəki azalma hələ də davam edirdi.

2013-cü ildə Baş nazir Shinzo Abe tərəfindən irəli sürülən siyasət Abenomics adlanmışdı. Bu siyasət stimullaşdırıcı fiskal siyasət, yumşaq monetar siyasət və struktur islahatları əhatə edirdi və üç siyasəti birlikdə əhatə etdiyindən bunu "üç ox" adlandırırlar. Bu siyasət də Yapon hökkümətinin əsas hədəfi 3% iqtisadi artım, 2% infilyasiya və büdcə profistinə nail olmaqdır.

*Qrafik 27*




Qrafik 27-də göründüyü kimi 2011-ci ildən iqtisadi artım azalaraq mənfiyə enmişdir. 2013-cü ildə həyata keçirilən siyasət nəticəsində iqtisadi artım müsbət qiymət alsa da, 2014-cü ilin ortalarından yenidən azalmış və növbəti illərdə artmağa başlamışdır.

Baş nazir Abenin yeritdiyi fiskal siyasət hökümət xərclərinin artırılmasını və vergi yüklərinin azaldılmasını əhatə edirdi. Bu xərclərə cəmiyyətin sağlamlıq, təhsil və təhlükəsizliyinə ayrılan xərclrlər daxildir. Qrafik 28-də göstərildiyi kimi dövlət xərcləri son 10 il ərzində 40 milyard yapon yeni artmışdır.

*Qrafik 28*




Dövlət öz xərclərini artırmaqla yanaşı, vergi dərəcələrini də azaltmışdır. Mənfəət vergisi son 10 ildə 40%-dən 30%-ə qədər enmişdir. Lakin sosial sığorta dərəcələri həm işçilər, həm də şirkətlər üçün 12%-dən 14-ə yüksəlmişdir. Mənfəət vergisinin azalmasına baxmayaraq, gəlir vergisində artma müşahidə olunmuşdur.

*Qrafik 29*




Qrafik 29-da işsizlik dərəcəsi öz əksinin tapıb. Diqqətlə nəzər yetirsək, əvvəlki illərdə işsizliyin çox olmasını, Yapon hökümətinin yeritdiyi həm

ekspansionist fiskal, həm də ekspansionist monetar siyasətin nəticəsində işsizlik dərəcəsi əhəmiyyətli dərəcədə azalmışdır.

*Qrafik 30*




Yaponiyada deflyasiyanın olması yeridilin bu siyasətdə yuxarıda da qeyd etdiyimiz kimi infilyasiya dərəcəsinin artırılması əsas hədəf kimi vurğulanmışdır. Qrafik 30-da da bu siyasətin əsas məqsədlərindən biri olan infilyasiyanın artırılmasına nail olunduğu görünür. Hədəf 2% qeyd olunsa da, 2014-cü ildən sonra infilyasiya 4%-ə yaxınlaşmışdır.

Yaponiya bankı yumşaq pul siyasəti nəticəsində 2012-cil ildən 2013-cü ilə qədər bir yapon yeni 0.13$-dan 0.0083$-a enmişdir. Valyutanın ucuzlaşması ixracın artırılmasına müsbət təsir göstərdiyindən yapon yenin də ucuzlaşması da Yaponiyanın ixracına müsbət təsir göstərdiyini aşağıdakı qrafikdən görə bilərik.

*Qrafik 31*




Onu da qeyd edək ki, Yaponiya bu siyasətin davamı olaraq 2017-ci ili fiskal il olaraq elan etmişdir.

İndi isə Norveçin iqtisadi vəziyyətinə və bu vəziyyətdə onun irəli sürdüyü iqtisadi siyasətə nəzər yetirək.

Norveç Skandinavia yarımadasında, İsveç və Finlandiya ilə həmsərhəd yerləşir. Azad bazar iqtisadi sistemi olan Norveçin əhəmiyyətli payı iqtisadiyyat xidmət sahələrindən, topdan və pərakəndə satışdan, ticarət, bankçılıq, sığorta, mühəndislik, nəqliyyat və kommunikasiyadan ibarətdir.

İqtisadi azadlığına görə 23-cü yerdə olan Norveçin ÜDM-i 371 milyard dollardır. 5.3 milyon əhali ilə burda adambaşına düşən ÜDM 89,5 mini keçib. 2011-ci ildən adam başına düşən ÜDM artan nisbətlə davam etməkdədir.

*Qrafik 32*




Aşağıdakı qrafikdə son 10 ilə nəzər yetirsək Norveçin ÜDM-ində dalğalanmanın nə dərəcədə olduğunu görərik. ÜDM-in artım dərəcəsi yalnız 2011-ci ildə 3%-ə çatmışdır. Digər illərdə isə 2%-dən aşağı olmuşdur. 2008-ci ildə maliyyə böhranı Norveç iqtisadiyyatına istehsalın azalması işsizliyin artması kimi cavab vermişdir. Sonradan iqtisadiyyatın canlanması üçün yeridilən fiskal siyasət nəticəsində iqtisadi vəziyyət düzəlsə də, hal-hazırda isə iqtisadi artımda mənfi hal müşahidə olunur.

*Qrafik 33*



İşsizlik probleminə baxsaq, 2008-ci ildən artım olduğunu görərik. Ən yüksək həddinə - 4,8%-ə isə ötən il çatmışdır. Hökumətin iqtisadi siyasətinin əsas məqsədi də yüksək məşğulluq və imtiyaz və vəzifələrin ədalətli bölüşdürülməsidir. Norveçin özünə məxsus sosial-iqtisadi modeli ictimai rifah sistemi, nemətlərin ədalətli paylanmasına köməkçi olur və dövlətin iqtisadi inkişafına təkan verir.Məşğulluq siyasətinin məqsədi yüksək işçi qüvvəsinin iştirakını təşviq etmək, aşağı işsizlik və səmərəli işçi qüvvəsinin istifadəsidir.

Avropada əmək haqqının yüksək olmasına görə digər ölkələrdən öndə olan Norveç hər saat üçün orta əmək haqq 23$ təşkil edir. Dövlətin məşğulluğun artrılması istiqamətində tədbirləri öz yerində, işsizləri də diqqət mərkəzindən kənarda qoymur. Onlar üçün yaradılan üstünlüklər Norveç xalqının rifahını yaxşılaşdırılmasına və qeyri-bərabərsizliyin azaldılmasına xidmət edir. Hal-hazırda Norveçdə işsizlik dərəcəsi 3,9% təşkil edir. Bu da ölkənin tam məşğulluq halında olduğunu göstərir desək yanılmarıq.

*Qrafik 34*




Norveçdə infilyasiyaya diqqət yetirsək, böhrandan sonra infilyasiya 6%-ə yaxılaşdığını, növbəti illərdə isə pul siyasətinin müdaxiləsi ilə aşağı endiyini görə bilərik. Hazırda isə infilyasiya 2,2% təşkil edir. Norveç bankının

həyata keçirdiyi pul siyasətinin əsas məqsədi aşağı və sabit inflyasiyanın qorunmasına kömək edir.

<u>*Qrafik 35*</u>




Bildiyimiz kimi vergilər dövlət büdcəsinin əsas hissəsini təşkil edir. Vergi kimi büdcəyə daxil olmaların həcmi çox olması dövlətin cəmiyyətin rifahını daha yaxşı təmin etməyə daha çox imkanı olur. Digər tərəfdən də iqtisadiyyatı stabil saxlamaq üçün də istifadə olunur.

<u>*Qrafik 36*</u>




Qrafik 35-də Norveçdə vergi yüklərinin həcmi faizlə göstərilmişdir. 2000-ci ildən vergilərin azaldılması dövlətin ekspansiv siyasətin xəbər

verdiyini qeyd edə bilərik. Əvvəlki qrafiklərdə 2016-cı ildə infilyasiya və işsizliyin artmasına cavab olaraq vergi yükünün də artımını görə bilərik. Hazırda isə vergi yükü 56,4%-dir.

*Qrafik 38*




Fiskal siyasətin digər aləti də dövlət xərcləridir. Maliyyə böhranı zamanı qrafikdə görünən məlumata görə dövlət xərclərinin 50%-ə çatması, 2016-cı ildə yaranmış işsizlikvə infilyasiyanın azaldılması üçün xərclərin artırılması həyata keçirilən ekspansiv siyasətdən xəbər verir. Sabitliyin əldə olunması nəticəsində isə dövlət xərcləri azaldılaraq 29,2%-ə endirilmişdir.

## 2.3. Dayanıqlı iqtisadiyyatın formalaşdırılmasına yönəlik iqtisadi siyasət tədbirlərinin prioritet istiqamətləri

Dünya ölkələrin qarşısında olan məqsədlərdən biri iqtisadi inkişafa nail olmaqdır. Lakin iqtisadi inkişafın olması isə hələ kifayət deyil. İqtisadi inkişafa nail olmaq dövlətlər üçün nə qədər əhəmiyyətlidirsə, onu qoruyub saxlamaq isə ondan daha əhəmiyyətlidir. Dayanıqlı iqtisadiyyata nail olmaq o qədər də asan deyildir. Sürətlə inkişaf edən ölkələrin iqtisadiyyatı davamlıdır deyə bilmərik. Məsələn, ABŞ-ın 1929-33-cü illərə qədər sürətlə inkişaf etsə də, sonda böhranla nəticələnmişdir. Bu cür halların qarşısını almaq üçün də ölkələr bir sıra tədbirlər həyata keçirirlər. Bu tədbirlərə inkişafdan qalan regionlara diqqətin artrılması, investisiyanın fiziki kapitala yox, insan kapitalına yatırılması, kənd təsərrüfatı məshulları istehsalının artırılması, yaşıl iqtisadiyyatın inkişafına və s. yönəlmiş tədbirlər aiddir.

Regionların əhali, coğrafi mövqeyi, iqlimi və təbii ehtiyatlarındakı fərqlər onların iqtisadiyyatının müxtəlif səviyyədə inkişafına səbəb olur. Bu problemin qarşısını almaq üçün balanslaşdırılmış iqtisadi inkişaf strategiyasından istifadə olunur. Regional iqtisadi inkişaıfn balanslaşdırılması dedikdə, ölkə daxilidə geridə qalmış regionlarla inkişaf etmiş hissəsi arasında fərqi azaltmaq və ya aradan qaldırmaq nəzərdə tutulur. Məsələn, Azərbaycanda Abşeron iqtisadi rayonu sürətlə inkişaf edərək digər regionları geridə qalır. Dövlət eyni zamanda digər iqtisadi rayonların da inkişafı üçün Dövlət proqramları qəbul etmiş, bu rayonların inkişafı üçün dövlət dəstəyini artırmış və güzəştlər tətbiq etmişdir. Bunlara Abşeron iqtisadi rayona nisbətən digər rayonlarda vergilər daha aşağı fazilə tətbiq edilməsi və ya tamamilə vergidən azad olunması, subsidiyaların ayrılması kimi güzəştlər aiddir.

Bundan başqa davamlı inkişafı təmin etmək üçün Triple Helix adlanan modeli də nəzərdən keçirək. Bu model adından göründüyü kimi - universitet,

sənaye müəssisələri və dövlət - üçlüyün birgə fəaliyyətini özündə əks etdirir. Universitetlər tədqiqatla, müəssisələr məhsul istehsalı ilə və dövlət isə bazarı tənzimləməklə məşğul olur. Dövlətin rolu burda yüksək təhsili təmin etmək bunula bağlı siyasət həyata keçirmək, həmçinin müəssisələrin sərbəst fəaliyyətini təmin etmək, bazarı zərərli müdaxilələrdən qorumaq və bazarı tənzimləməkdir. Universitetlərin, akademiyaların rolu isə yalnız savadlı kadr yetişdirmək deyil, iqtisadiyyata faydalı olan innovasiyaların, kəşflərin edilməsidir. Sonda müəssisələr isə dövlətin yaratdığı əlverişli şəraitdə universitetlərin fəaliyyətlərinin nəticəsini tətbiq edərək mal və xidmətlər istehsal etməlidir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanda həyata keçirilən islahatlar bazar münasibətləri əsasında iqtisadi sistemin yeni inkişafına keçməsini təmin edir. Büdcə defisitini azaltmaq və ya büdcə profistinə nail olmaq hər bir dövlətin arzusudur. Azərbaycan buna 2018-ci ilin ilk rübündə nail olmağı bacarmışdır. Belə ki, bütün keçirilən tədbirlər nəticəsi olaraq 2018-ci ilin ilk üç ayı ümumi büdcə gəlirləri 7062 mln. manat, keçən ilin ilk rübü ilə müqayisədə 1413 mln. manat, yəni 25% çoxdur. Xərclər isə bu il  4758 mln. manat olaraq, keçən ilin birinci rübü ilə müqayisədə 29% azlıq təşkil etmişdir. Nəticədə dövlət büdcəsində 2304,6 mln. manat profisit yaranmışdır.

Azərbaycanın qarşısında duran məsələlərdən biri neftdən əldə olunan gəlirlərin büdcəyə köçürülməsini tənzimləyən “qızıl qayda”nın qəbul edilməsidir. Azərbaycanın neftdən asılı olması və bunun qarşısını alınması məsələsi bu qaydanın zəruriliyini ortaya çıxarmışdır. Bu “qızıl qayda” özündə dövlət xərclərinin böyük hissəsini neft sektorundan əldə olunan gəlirlərlə deyil, qeyri-neft sektorundan əldə olunan gəlirlərlə qarşılanmasını əks etdirir.

Təbii ehtiyatlardan asılı dövlətlər kimi Azərbaycan da bunun qaşısını almaq üçün ehtiyat fondu yaratmışdır. Məsələn, Norveç özünün yaratdığı neft fondundan il ərzində 4% dövlət büdcəsinə transfer edir.

Azərbaycan da davamlı inkişafını təmin etmək üçün aparılan siyasəti genişləndirməli və davam etdirməlidir. İqtisadi modeldə effektiv pul-kredit siyasəti tətbiq edilməli, özəlləşdirmə davam etdirilməli, iqtisadiyyatda dövlət sektorunda səmərəliliyinin artırılması üçün olan yanaşmanın koordinasiya edilməli, insan kapitalının inkişaf etdirilməli, əlverişli biznes mühitinin inkişaf etdirilməlidir.

Subsidiya, süni tələb, dövlətin himayəsi və s. ilə iqtisadi proseslərin qarşısını almaq əlşatmazdır. Heç bir makroiqtisadi siyasət, ÜDM-ın aşağı düşməsinin, işsizliyin yüksəlməsini, infilyasiya və devalvasiyanın artmasının qarşısını ala bilməz. Makroiqtisadiyyatın idarəetməsi yalnız hiperinflyasiyanı, devolvasiyanın sürətlənməsinin, büdcə kəsirinin davam və bu kimi problemlərin daha da artmamasının qarşısını ala bilər. İlk öncə müəyyən iqtisadi addımlar atmaqla iqtisadiyyatın liberallaşdırılması aparılmalıdır. İqtisadi tarazlığın yaradılması və bazarı tənzimləməyin vacib üsuludur. İslahat strategiyası nəzərdə tutulmayan xərclərin maksimal bölgüsünə əsaslanmalıdır. Bu sosial tərəfdən gəlirlərin diferensiallaşmasının və iqtisadi tərəfdən səmərəsiz istehsalın, ümidsiz borcların və s. büdcəyə əlavə yükün yaratmaması üçün önəmlidir. İslahatların müvəffəqiyyətlə nəticələnməsinə bu islahatı aparanların inanması böyük əhəmiyyət kəsb edir. İslahat siyasi problem olduğu üçün xalqın dəstəyinə böyük ehtiyac vardır.

Davamlı iqtisadi inkişafa nail olmaq üçün iqtisadi inkişafın ümumi səviyyəsi nəzərə alınaraq, vacib vasitə sayılan makroiqtisadi tənzimləmənin əsas prinsipləri aşağıdakılardır:

- Müxt əlif iqtisadi sektorların kompleks inkişaf etdirilməli;

- İqtisadiyyatın tənzimlənməsində inzibati yox, iqtisadi yəni, dolayı üsullardan istifadə edilməli ;

- Həyata keçirilən siyasət heç bir halda iqtisadi subyektlərin fəaliyyətinin qarşısını almamalı və ya məhdudlaşdırmamalıdır,

- Əhalinin sosial təminat ilə bağlı islahatların sürətləndirilməsi, yaşlıların sosial təminat sistemi və tibbi sığorta sistemi daim inkişaf etdirilməli;

- İqtisadiyyatın dünya ilə inteqrasiyasını davam etdirərək yerli və xarici sahibkarlar üçün iqtisadi vəziyyətinin eyniləşdirilməsi təmin olunmalı;

- İqtisadi qanunvericilik iqtisadi modelə uyğunlaşdırılmalıdır.

İqtisadiyyatın inkişafı üçün dövlət öz xərclərini düzgün istiqamətə yönəltməli və onu idarə etməlidir. Xərcləri iqtisadi cəhətdən daha çox xeyir gətirən və gəlirlərin bölgüsünü yaxşılaşdıran sahələrə yönəltmək lazımdır. Vergi islahatları büdcəyə daxilolmaları azaltmamalı və iqtiadi subyektlərin effektiv fəaliyyəti üçün vergi dərəcələri aşağı salmalıdır. İxracın uzunmüddətli stimullaşdırılması və artırılması üçün milli valyutanın optimal səviyyəsi müəyyənləşdirilməlidir. Birbaşa xarici investisiyanın cəlb edilməsini stimullaşdırmaq üçün rəqabət şəraiti yaradılmaqla yanaşı, daxili və xarici güzəştlər olmalıdır. İqtisadi təhlükəsizliyin təmin olunmalı, iqtisadi problemlərin yarandığı hallar zamanı tənzimlənmə üsulları istisna olmaqla, iqtisadiyyata dövlətin müdaxiləsi minimuma endirilməlidir. Qanunvericilik və mülkiyyət beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

Bundan başqa müasir iqtisadi idarəetmə sistemi və tənzimləmə üsulları vasitəsi ilə dövlətin iqtisadi fəaliyyətdəki rolunun azaltmaq, onun cəmiyyətin ictimai xidmətlər tələbatının ödənilməsi yolunda fəaliyyətini sürətləndirilmək və iqtisadi inkişafda istiqamətləndirici rolunun artırılması iqtisadi inkişafa çatmaq üçün əhəmiyyətli xarakter daşıyır. Həmçinin ölkənin ayn-ayrı regionlarının dinamik inkişafına yönəlmiş məqsədyönlü regional-iqtisadi siyasətin davam etdirilməsi, əhalinin ərzaqla etibarlı təminatı, əhalinin sosial müdafiə və sosial yardım təminatı sisteminin müasir tələblərə uyğunlaşdırılması və əhalinin h əyat səviyyəsinin yüksək mərhələyə qaldırılmasının təmin olunması da diqqət mərkəzində olmalıdır.

Bununla yanaşı, ÜDM-in illik artımını 10%-dən yuxarı qaldırılmasını təmin etmək və onun büdcə vasitəsi ilə yenid ən bölünən hissəsinin 35-40%-ə

çatdırılaraq dayanıqlı bazanın yaradılması, vergi sistemini təkmilləşdirmək və büdcəyə daxil olan birbaşa və dolayı vergilərin yükünün optimal həddə çatdırılması, dövlət idarələrində çalışanların orta aylıq əmək haqqlarının artırılması, iqtisadiyyatın normal fəaliyyəti üçün Mərkəzi Bankın yeritdiyi pul-kredit siyasətinin mövcud iqtisadi vəziyyətə uyğunluğunun təmin edilməsi əsas istiqamətlərdən olmalıdır. Eyni zamanda, kənd təsərrüfatı məhsulları ilə yanaşı, bu sahədə istifadə olunan texnikanın istehsal olunması və bunun davamlı inkişafı, bu sahədə infrastrukturun yaradılması, kənd təsərrüfatə istehsal amillərinin məhsuldarlığını artırılması öndə gedən məqsədlərdən olmalıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATLAR


1. Prof. Haydar Baş- Milli iqtisadi model
2. www.investopedia.com
3. www.economicsonline.co.uk
4. banker.az
5. www.thebalance.com
6. www.economicshelp.org
7. www.tutor2u.net
8. www.econlib.org
9. banco.az
10. www.azerbaijans.com
11. Strateji Yol Xəritəsi
12. www.azerbaijan.az
13. files.preslib.az
14. Arif Şəkərəli oğlu Şəkərəliyev - "Dövlətin iqtisadi siyasəti: realliqlar və perspektivlər"
15. www.agro.gov.az
16. Azərbaycan Respublikasi Mərkəzi Bankinin 2018-ci il və ortamüddətli dövr üçün pul siyasətinin əsas istiqamətləri barədə Bəyanati
17. vergiler.az
18. www.regjeringen.no
19. www.iedconline.org
20. www.economicsdiscussion.net
21. iurd.berkeley.edu
22. R.Həsənov - "İqtisadi siyasət: metodologiya və praktika"
23. M.A.Əhmədov A.C.Hüseyn - "İqtisadiyyatin dövlət tənzimlənməsinin əsaslari"

24. Doç. Dr. Osman Nuri Aras Elçin Süleymanov – “ Azərbaycan iqtisadiyyatı”
25. tradingeconomics.com
26. www.worldbank.org
27. www.heritage.org
28. www.imf.org
29. www.cbar.az
30. www.economy.gov.az
31. www.e-qanun.az